**11 yaşlı dahinin kəşfi**

Avtomobil sürərkən telefonla danışmaq təhlükəli bir davranışdır, ancaq bəzilərinə bu da azlıq edir, onlar sükan arxasında telefonla mesajlaşırlar. Amerikanın AT&T adlı şirkəti sürücüləri bundan çəkindirmək üçün Los Anceles şəhərində bir müsabiqə keçirməyi qərara aldı. Müsabiqədə bir şirkətdə yaradıcı direktor vəzifəsində çalışan Deyvid Qrau və 11 yaşlı Victoriya Volker AT&T şirkətinin 20.000 dollar dəyərində mükafatına layiq görüldülər. Bunların ikisinin birlikdə hazırladıqları «Rode Dog» adlanan proqram təminatı yoldaşlarınızın və ailənizin «paketler» şəklində təşkil edilməsinə izn verir və mesajlaşma alışqanlığınıza nəzarət edir. Bunun sayəsində istifadəçilər bir qrup yoldaşının mətn mesajı yazdığını başa düşə bilir və bu, telefonda bir it hürməsini səsləndirə bilir. Cihaz təhlükəsizlik kəmərlərinin prinsipi ilə işləyir və istifadəçi xəbərdarlığın fərqinə varana qədər it hürməsinin arası kəsilmir.

İt hürməsi əvəzinə xoruz banlaması və ya digər heyvan səsləri də qoymaq mümkündür. Bu səslər proqram təminatının içərisindən əldə olunur.

Qeyd edək ki, bu, AT&T şirkətinin sükan arxasında mesajlaşma kimi təhlükəli halın qarşısını almaq üçün ilk təşəbbüsü deyil. Şirkət bundan öncə Android və BlackBerry için avtomobil idarə olunarkən axtarış və mesaj göndərmə kimi hərəkətlərin qarşısını alan DriveMode adlı bir proqram təminatı təklif etmişdi.